# Azərbaycan kino mədəniyyətinə səyahət




*Kino sənəti insan təxəyyülünün, kollektiv yaddaşın və mədəni özünüdərkin güzgüsü kimi zaman və məkan sərhədlərini aşır. Bu sənət estetik forma ilə sosial reallıqların sintezini yaradaraq bir tərəfdən cəmiyyətin dəyərlərini, qayğı və inkişafını əks etdirir, digər tərəfdən isə onu formalaşdırır və gələcək nəsillərə ötürür. Məhz bu səbəbdən texnoloji və estetik axtarışların sintezi olaraq XIX əsrin sonlarında ortaya çıxan kino sənəti qısa müddətdə qlobal mədəniyyətin əsas ifadə vasitələrindən birinə çevrilmişdir. Dünya kinosunun tarixi texniki yeniliklərin, sosial-mədəni dəyişikliklərin və bədii cərəyanların mürəkkəb qarşılıqlı təsiri ilə formalaşmışdır.*



1839-cu ildə fotoqrafiyanın kəşfi vizual görüntülərin qeydə alınmasını mümkün etmişdi, Edvard Maybrikin 1878-ci ildə "Hərəkətdə olan at" adlı şəkilləri isə hərəkətin təsvirində yeni cərəyan yaratmşdı. 1895-ci il dekabrın 28-də Parisdə "Lumieres kinematoqrafı" ilə ilk ictimai kino nümayişi keçirildi. "Qatarın stansiyaya daxil olması" və "Fəhlələrin fabriki tərk etməsi" kimi qısametrajlı filmlər tamaşaçıları heyrətə gətirmişdi. Bu mürəkkəb mahiyyətin təzahürü kimi xalqın tarixinin, mənəvi dəyərlərinin, sosial-mədəni dinamikasının və estetik axtarışlarının bədii ifadəsinin təcəssüm olan Azərbaycan milli kinosunun tarixi də 1898-ci il avqustun 2-də fransız fotoqraf və nasir Aleksandr Mişonun çəkdiyi "Bibiheybətdə neft fontanı yanğını", "Balaxanıda neft fontanı", "Şəhər bağında xalq gəzintisi" və "Qafqaz rəqsi" kimi xronika süjetləri ilə başlamışdır. Müasir filmlərə qədər uzanan bu yol Azərbaycan kinosunu yalnız regional kontekstdə deyil, həm də qlobal kinematoqrafiya məkanında müəyyənləşdirən dərin transformasiya prosesinin təcəssümüdür. Kinoşünas Aydın Kazımzadə əsərlərində qeyd edir ki, əsl adı isə Aleksandr Berezovski olan Aleksandr Mixayloviç Mişon, əslində, fransız deyil, polyak idi. Polşada doğulmuş Berozovskilərdən biri rus çarı III Aleksandra qarşı sui-qəsddə iştirak etmiş və həbs olunmuşdu. İkinci qardaş isə bu hadisələrdən sonra Polşadan köçmüş, Ukraynanın Xarkov şəhərinə gedərək soyadını Mişon olaraq dəyişmişdi. Bir neçə il sonra isə Bakıya gələrək burada fotoqrafiya sahəsində fəaliyyətə başlamış və film çəkilişi ilə də məşğul olmuşdu. Həyat yoldaşı onunla Xarkova qayıtmaq istədikdə, Mişon bu təklifilə razılaşmadığı üçün onlar rəsmi ayrılmışdılar. Həyat yoldaşı qızını da götürüb Xarkova qayıtmış, Aleksandr Mişon isə Qusar rayonundan olan bir xanımla ailə qurmuşdu. 1900-cü ildə Fransada keçirilən ümumdünya sərgisi Azərbaycan kino tarixinin taleyində mühüm dönüş nöqtəsinə çevrilmişdi. Çar Rusiyasını təmsil edən Aleksandr Mişon Bakıda çəkdiyi filmləri Parisə aparmış, beləliklə, Azərbaycanın vizual yaddaşı, şəhər həyatı, gündəlik sosial ritmi ilk dəfə olaraq beynəlxalq kino məkanına daxil olmuşdu. Mişonun təqdim etdiyi filmlər Parisdə o dövrün kino avanqardı sayılan Lümyer qardaşlarının diqqətini çəkmiş, öz şəxsi arxivlərinə daxil etmişdilər. Filmlərin taleyi ilə bağlı ciddi araşdırmalar yalnız müstəqillik dövründə aparılmışdı. Kino tədqiqatçısı Aydın Kazımzadənin və bir sıra digər araşdırmaçıların təşəbbüsü ilə məlum olmuşdu ki, Mişonun Parisdə göstərdiyi filmlər Lümyer qardaşlarının arxivindədir və onlar vəfat etdikdən sonra bu materiallar Fransa dövlətinin kino arxivinə təhvil verilmişdir. Uzun illər davam edən diplomatik yazışmalar, mədəniyyət xadimlərinin israrlı tələbləri və dövlət səviyyəsində aparılan işlər nəticəsində, kino materialları geri alınmışdır. Bu, həm mədəni suverenliyin, həm də milli irsin qorunmasının incə və təsirli nümunəsidi.

Ümumiyyətlə, Azərbaycanda kinonun yaranma tarixi müxtəlif səbəblərdən üç dəfə dəyişmişdir. İlk dəfə 1919-cu il avqustun 27-də Leninin kinematoqrafiyanın və fotoqrafiyanın milliləşdirilməsi barədə verdiyi dekret əsasında həmin tarix "Kino Günü" adlandırılmışdı. Bu dekret keçmiş Sovet İttifaqının tərkibində olan 15 respublika üçün ümumi qayda idi. Sovet İttifaqı süqut etdikdən sonra Azərbaycanda kinonun tarixi 1916-cı ildə ekranlara çıxmış "Neft və milyonlar səltənətində" adlı iki seriyalı bədii filmin nümayişi nəticəsində 14 mayda qeyd olunmağa başlamışdı. Filmin 1-ci seriyası 1916-cı ilin mayın 14-də, 2-ci seriyası isə mayın 27-də göstərilmişdi. Filmin orijinal nüsxəsi bu günə qədər qorunub saxlanmasa da, onun haqqında olan prospekt (film haqqında yazılmış reklam vərəqi) hələ də Mirzə Fətəli Axundzadə adına Kitabxanada nadir nüsxələr bölməsində saxlanılır. 1920-ci illərdə Azərbaycan Foto-Kino İdarəsinin (AFKİ) təsis edilməsi ilə kino sənəti sistemli şəkildə inkişaf etməyə başladı. AFKİ milli kadrların hazırlanması və kinostudiyaların maddi-texniki bazasının gücləndirilməsi üçün mühüm rol oynadı. Bu dövrdə xurafata, cəhalətə qarşı mübarizə, inqilab və qadın azadlığı kimi mövzular filmlərin əsas istiqamətləri idi. Məsələn, 1929-cu ildə çəkilmiş "Sevil" filmi qadın azadlığı mövzusunu işıqlandıraraq dövrün sosial problemlərinə toxunurdu. 1936-cı ildə Azərbaycan kinosunda mühüm yeniliklər baş verdi. İlk səsli bədii film olan "Mavi dənizin sahilində" texnoloji və bədii sıçrayışın simvolu oldu. Bu film səsli kino texnologiyasının tətbiqi ilə yanaşı, sosialist ideologiyasının təbliğini də özündə ehtiva edirdi.

İkinci Dünya müharibəsindən sonrakı dövrdə isə kino sənəti yenidən canlandı. Şərq mədəniyyətinin incilərindən olan "Arşın mal alan" (1945) filmində həm milli musiqi ənənələrimiz, həm də məhəbbət, azad seçim və qadın hüquqları kimi universal dəyərlər bədii dillə təqdim edildi. 1950-ci illərdə "Bəxtiyar" (1955), "O olmasın, bu olsun" (1956), "Uzaq sahillərdə" (1958) kimi 100-dən çox ölkədə nümayiş olunan ekran işi Azərbaycan kinosuna yeni nəfəs verdi. Heydər Əliyev 1969-1982-ci illərdə kino sənayesinin inkişafına xüsusi diqqət yetirdi. Onun göstərişi ilə "Azərbaycanfilm" kinostudiyasının maddi-texniki bazası gücləndirildi, peşəkar kadrların hazırlanması üçün şərait yaradıldı və yeni filmlərin istehsalı stimullaşdırıldı. Bu dövrdə rejissorlar daha çox fərdi və universal mövzulara müraciət etməyə başladılar. Azərbaycan xalqının keçmişini və bu gününü əks etdirən "Nəsimi" (1973) və "Dədə Qorqud" (1975) filmləri yüksək sənətkarlıq səviyyəsi ilə beynəlxalq festivallarda da uğur qazandı və milli qəhrəmanların, mədəniyyətin əhəmiyyətini vurğulamaqla yanaşı, Azərbaycan xalqının tarixi və sosial həyatının müxtəlif cəhətlərini əks etdirdi. 2 may 1998-ci ildə Azərbaycan kinosunun 100 illiyi ilə bağlı baş tutan festivalda Ulu Öndər demişdi ki, bu gün sübut etdik ki, Azərbaycan kinosunun tarixi 1898-ci ildən başlayır: "Biz 1916-cı ili başlanğıc ili hesab edirdik, lakin Azərbaycan kinosunun yaşını əgər belə demək olarsa 10 il, yaxud, neçə il artırmaq ümumən heç də sadə məsələ deyildi. Bu o deməkdir ki, Azərbaycan sivilizasiyalı ölkədir, dünyada kino meydana çıxan kimi o, Azərbaycana gəlib…".

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, kinorejissor Yusif Quliyev** bildirir ki, yaxşı film mənəvi dərinliklə, bədii dürüstlüklə, insan ruhuna toxunan səmimiyyətlə yadda qalır. "Yaxşı film" anlayışı yalnız texniki göstəricilərlə, parlaq vizual effektlərlə və yüksək büdcə ilə müəyyən edilmir. Bu, çoxşaxəli və mürəkkəb bir məfhumdur ki, onun təməlində həm sənətkarlıq, həm də mədəni-estetik dəyərlər dayanır. Ən əsası isə yaxşı film insan ruhuna toxunur. Lakin bu sualın cavabı hər zaman yaşanılan bölgənin ictimai-sosial kontekstindən, mədəni kodlarından və tarixi təcrübəsindən asılı olaraq dəyişə bilər. Yəni anlayış həm universal, həm də lokaldır.

Tez-tez məndən soruşurlar: tamaşaçı nə cür film istəyir? Cavab çox sadədir - tamaşaçı maraqlı film istəyir. Maraqlı film nədir? Burada həm mətnin, ssenarinin gücü, həm də onun vizual dildə necə təqdim olunduğu, yəni rejissorun, quruluşçu operatorun, təsvir rejissorunun yanaşmaları və sənətkarlığı mühüm rol oynayır. Lakin texniki və peşəkar keyfiyyətlər bəzən kifayət etmir. Çünki tarixin müxtəlif dönəmlərində biz o qədər filmlərlə qarşılaşmışıq ki, texniki cəhətdən çox zəif olmalarına baxmayaraq, ideya baxımından güclü olduqları üçün yadda qalıblar. Mən bunu dəfələrlə yerli və beynəlxalq festivallarda görmüşəm. Əsas məsələ filmin bədii məzmunu, ideyanın insan qəlbinə toxunması, onun daxili dünyasında hansı təlatümləri yaratmasıdır.



Azərbaycan kinosunun estetik baxımdan formalaşmasında 1960-1970-ci illər mühüm mərhələ olub. Bu dövrdə milli kadrların yetişdirilməsi prosesi öz bəhrəsini verməyə başlayıb və bir çox parlaq simalar kinomuzun yaddaşına həkk olunub. Həmin dövr milli kinomuzun qızıl dövrü hesab oluna bilər. Çünki bu mərhələdə məzmun baxımından zəngin, ideoloji yükü olan filmlər ərsəyə gəlirdi. Bu gün belə həmin filmlərə istinad olunur və istinadlar sadəcə nostalji deyil, bədii ölçülərlə əsaslandırılır. Sovet İttifaqının dağılmasından sonra isə kinomatoqrafiyada digər postsovet ölkələrində olduğu kimi, Azərbaycanda da ciddi durğunluq yaşandı. Bu, həm keçid dövrünün sosial-iqtisadi çətinlikləri, həm də sənaye strukturunun dağılması ilə bağlı idi. Bəzi ölkələr bu mərhələni daha tez və çevik şəkildə keçə bildilər. Bu gün Azərbaycan kinosunun inkişafı üçün ciddi cəhdlər göstərilir. Prosesin uğurla irəliləməsi isə bütövlükdə kino sənayesini təşkil edən mütəxəssislərdən - kinorəssamlar, montaj ustaları, səs rejissorları və kino bəstəkarlarından da asılıdır. Əgər biz doğrudan da dünya səviyyəsində rəqabətədavamlı filmlər istehsal etmək istəyiriksə, o zaman, ilk növbədə, fundamental biliklərə malik rejissorların, ssenaristlərin yetişdirilməsinə ciddi diqqət yetirməliyik. Yaxşı rejissor ədəbi-dramaturji strukturu dərindən bilməlidir. Əks halda, rejissor bir ideya ilə yola çıxır, sonra anlayır ki, bu ideya artıq neçə on illər əvvəl işlənib və artıq rejissorun estetik dünyagörüşünün zəifliyi məlum olur. Əslində, dünya ədəbiyyatında və kinosunda işlənə biləcək əsas ideyaların sayı o qədər də çox deyil, təxminən 36 əsas süjet modeli mövcuddur. Amma bu süjetlərə yanaşma tərzi, təqdimetmə forması və estetik dil fərqli olduqda yeni yanaşmalar meydana gəlir.

Mən beynəlxalq festivallarda, xarici rejissorlarla olan görüşlərdə tez-tez bir fikir eşidirəm: "Bizə Amerika kinosu lazım deyil, biz onu hər gün görürük. Bizə sizin necə yaşadığınız, necə düşündüyünüz, milli adətləriniz, daxili ağrılarınız maraqlıdır". Bu fikir çox vacibdir və bizə istiqamət göstərir. Kino milli-mədəni identikliyin ifadəsidir. Hər bir xalq öz dərdini, sevincini, tarixini və mədəniyyətini kinoda yaşatmalıdır. Təəssüf ki, bu gün Azərbaycanda, xüsusilə uşaqlar üçün filmlər sahəsində ciddi boşluq mövcuddur. Axırıncı bu sahədə yaddaqalan və keyfiyyətli məhsullar Əlisəttar Atakişiyevin rejissoru olduğu "Bir qalanın sirri", "Sehrli xalat", "Qərib cinlər diyarında" filmləridir. Bu filmlərdən sonra demək olar ki, uşaqlar üçün uğurlu və yaddaqalan işlər ortaya qoyulmayıb.

Yaxşı film həm də tarixi dərketmə qabiliyyəti tələb edir. Qarabağ müharibələri ilə bağlı müəyyən filmlər çəkilib, lakin hələ də tam potensial istifadə olunmayıb. Halbuki o dövrün qəhrəmanlarının həyat yolu, fədakarlıqları bədii əsərlərə çevrilə bilər. Bu cür filmlər təkcə tarixi sənədləşdirmək deyil, həm də gələcək nəsillərə milli kimliyi aşılamaq baxımından əvəzsizdir. Sonda qeyd etmək istəyirəm ki, yaxşı film dedikdə yalnız "nəyi çəkirik" sualı deyil, "niyə çəkirik" və "necə çəkirik" sualları daha çox əhəmiyyətlidir. Əgər biz bu suallara birmənalı və mədəniyyətimizə, tariximizə, mənəviyyatımıza söykənən cavablar verə biliriksə, deməli, yaxşı film yaratmaq yolunda əmin addımlarla irəliləyirik. Azərbaycan kinosunun gələcəyi isə məhz belə düşüncə ilə formalaşacaq.

**Fidan ƏLİYEVA,**
**"Respublika".**